
Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Original Research Paper

XVIII ƏSRİN I YARISINDA RUSİYANIN AZƏRBAYCANDA MÖHKƏMLƏNMƏK SİYASƏTİ

Faiq Abışov

https://orcid.org/0009-0006-3792-5025

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

Article history
Received: 01.11.2026
Revised: 10.11.2026
Accepted: 17.11.2026

*Corresponding Author: Faiq Abışov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Email: faiqabisov94@gmail.com

Xülasə

Məqalədə ilk əvvəl XVIII əsrin birinci yarısında Rusiya imperiyasının Xəzər dənizi hövzəsində və Cənubi Qafqazda yürütdüyü siyasətin məqsədlərindən, I Pyotrun "Manifest"indən, Rusiyanın Xəzərsahili vilayətlərə marağını şərtləndirən siyasi, iqtisadi və strateji amillərdən, 1722–1723-cü illər Rusiyanın yürüşündən, Dərbəndin və Bakının ələ keçirilməsindən, 1723-cü il Peterburq müqaviləsindən, yerli hakimlərin və əhalinin Rusiya qoşunlarına münasibətindən, Hacı Davudun başçılığı ilə Şirvanda baş verən üsyandan, Rusiya–Osmanlı–İran münasibətlərinin Azərbaycana olan təsirindən bəhs edilir. Aydın olur ki, I Pyotrun ölümündən sonra Rusiya ordusu iqlim şəraiti, xəstəliklər və təchizat çətinlikləri ucbatından xeyli itki verərək bu ərazilərdə möhkəmlənə bilməmişdir. Nəticədə 1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələrinə əsasən Rusiya Xəzərsahili vilayətlərdən çıxmağa məcbur olmuşdur. Bununla belə, bu dövrdə qazanılmış təcrübə sonrakı onilliklərdə Rusiyanın Cənubi Qafqaz siyasətinin formalaşmasına təsir göstərmişdir.

Açar sözlər: *Rusiya imperiyası, Osmanlı imperiyası, I Pyotr, Nadir xan Əfşar, Azərbaycan, Xəzərsahili vilayətlər*

GİRİŞ

XVIII əsrin əvvəllərində Səfəvilər dövləti keçmiş qüdrətini itirmişdi və dərin iqtisadi-siyasi böhran keçirirdi. 1700–1703-cü illərdə Azərbaycanda, xüsusilə Şirvanda keçən quraqlıq və aclıq bazarlarda qiymətlərin bir neçə dəfə artmasına səbəb olmuşdu. Feodal istismarının həddini aşması, Səfəvi dövlətinin bir çox yerində olduğu kimi Azərbaycanda da yerli feodallar əleyhinə üsyanların baş verməsinə gətirib çıxardı [2, s.320]. Azərbaycanda ilk üsyan 1707-ci ildə Car-Balakən bölgəsində başladı. Qısa müddətdə Azərbaycanın müxtəlif bölgələrində bir sıra üsyanlar baş verdi. Bu dövrdə əfqanların hücumları Səfəvilər dövlətinin vəziyyətini daha da ağırlaşdırmışdı.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24298491

Səfəvilər dövləti böhrandan çıxmaq üçün Rusiya ilə yaxınlaşdı. 1713-cü ildə Şah Sultan Hüseyn "Dostluq və ticarət müqaviləsi" bağlamaq üçün Fəzullah bəyi Peterburqa göndərdi [4, s.258]. Səfəvilər dövlətinin Rusiyaya müraciət etməsi I Pyotrun şərq siyasətinin formalaşması dövrünə təsadüf edir. Rusiya imperiyası Osmanlı dövləti ilə uğursuz müharibə aparmış və Qara dənizə çıxış əldə etməkdən ümidini üzərək, diqqətini Xəzər dənizində möhkəmlənməyə yönəltmişdi. Pyotr hələ 1714-cü ildən başlayaraq Xəzər dənizinin şərq sahillərini öyrənmək üçün buraya ekspedisiya göndərmişdi. Rusiya özünün inkişaf etməkdə olan iqtisadiyyatını xammalla təmin etmək, Volqa–Xəzər ticarət yolunu inkişaf etdirib genişləndirmək məqsədi ilə Xəzəryanı vilayətlərə yiyələnməyə can atırdı və digər dövlətlərin, ilk növbədə Osmanlı dövlətinin həmin ərazilərdəki nüfuzunun artmasına hər vasitə ilə mane olmağa çalışırdı [3, s.39].

Beləliklə, XVIII əsrin birinci yarısında Xəzərsahili vilayətlər Rusiya, Osmanlı və İran arasında rəqabət obyektinə çevrilmişdi. Bu məqalənin məqsədi Rusiyanın Xəzərsahili vilayətlərdə möhkəmlənmək siyasətinin məqsəd və vasitələrini, onun reallaşma gedişini və nəticələrini araşdırmaq, bu siyasətin uğursuzluğunun səbəblərini Rusiya–Osmanlı–İran münasibətləri kontekstində müəyyənləşdirməkdir.

Material və metodlar

Tədqiqat tarixilik, obyektivlik və sistemlilik prinsipləri əsasında aparılmışdır. Mövzunun araşdırılmasında tarixi-müqayisəli və təhlil–sintez metodlarından istifadə edilmişdir. Hadisələr xronoloji ardıcıllıqla izlənmiş, Rusiya, Osmanlı və Səfəvi (sonradan Nadir xan Əfşar) siyasətləri müqayisəli şəkildə təhlil olunmuş, 1723-cü il Peterburq, 1724-cü il İstanbul, 1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələrinin şərtləri bir-biri ilə əlaqəli şəkildə nəzərdən keçirilmişdir.

Tədqiqatın əsasını Azərbaycan tarixinə, o cümlədən XVIII əsrdə Azərbaycanın beynəlxalq münasibətlərinə və diplomatiya tarixinə dair ümumiləşdirici elmi əsərlər, o cümlədən yeddicildlik "Azərbaycan tarixi" və "Azərbaycan: Beynəlxalq münasibətlər və Diplomatiya tarixi" kimi nəşrlər təşkil etmişdir (bax: Ədəbiyyat siyahısı).

Nəticələr

1.1. Rusiya–Səfəvi əlaqələri və Şirvan üsyanı (1716–1721)

I Pyotr Xəzər dənizinin qərb sahillərini öyrənmək məqsədi ilə Səfəvi dövlətinə özünün yaxın adamlarından biri olan A.P.Volınskini göndərdi. 72 nəfərdən ibarət olan elçilik 1716-cı il avqustun son günlərində Həştərxandan Dərbəndə, sonra da Şamaxıya çatdı [1, s.469]. Volınski elçilik prosesində I Pyotrun kəşfiyyat xarakterli tapşırıqlarını, o cümlədən karvan yollarını və müdafiə qurğularının vəziyyətini öyrənməyə çalışırdı. O, Şamaxıdan Təbrizə, 1717-ci ilin martında isə İsfahana yetişdi. Şah tərəfindən qəbul edilən A.P.Volınski baş vəzir Fətəli xanla danışıqlar apardı. Ticarət müqaviləsini imzaladıqdan sonra Rusiyaya qayıtmaq qərarına gəldi. Hələ müqavilə hər iki dövlət başçısı tərəfindən təsdiq edilməmiş A.P.Volınski onun mətninin nüsxələrini Şahın fərmanı ilə birlikdə rus tacirlərinin alver etdiyi şəhərlərə, xüsusilə Şirvan bəylərbəyiliyinə göndərdi. Şahın fərmanında və müqavilə layihəsində rus tacirlərinin yerli hakim və tacirlər tərəfindən sıxışdırılması qəti qadağan olunurdu. 1717-ci il dekabrın 17-də Şamaxıya qayıdan Volınski Cənubi Qafqaz xristianları ilə, sonra isə Dərbənddən gələn erməni tacirləri ilə görüşdü. Onlar Volınskiyə Dərbənd qalasının planlarını gətirmişdilər [4, s.259].

XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin vəziyyəti daha da ağırlaşmışdı. 1720–1721-ci illərdə Azərbaycanda üsyan dalğası yenidən alovlandı. Üsyan rəhbəri Hacı Davud Dağıstan feodallarından olan Qazıqumuqlu Surxay xanla ittifaqa girərək Şabranı, 1721-ci ilin avqustunda isə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24298491

Şamaxı şəhərini ələ keçirdi [2, s.327]. Bu zaman Şamaxıdakı rus tacirlərinə də zərər dəydi, bəziləri öldürüldü. Hacı Davudun Gəncə, Dərbənd və Bakıya olan hücumları uğursuzluqla nəticələndi.

Şirvan üsyanından bir il sonra İsfahan əfqanlar tərəfindən işğal olundu. Şah Sultan Hüseyn həbs olundu. Lakin şahın oğlu Təhmasib qaçmağa imkan tapdı. O, İranın şimal əyalətlərində özünü II Təhmasib adı ilə şah elan etdi [5, s.526].

"Manifest" və 1722–1723-cü illər yürüşü

Belə bir şəraitdə Rusiya və Osmanlı imperiyalarının Azərbaycan uğrunda mübarizəsi kəskinləşdi. İsveç üzərindəki qələbədən sonra I Pyotr diqqətini Azərbaycana yönəltmişdi. O, Azərbaycan əhalisi arasında yürüşün səbəbini doğrultmaq məqsədi ilə "Manifest" çap edib xüsusilə Xəzərboyu əyalətlərdə yerləşən şəhər və kəndlərə göndərirdi. Azərbaycan dilində çap olunmuş "Manifest"də yürüşün mahiyyəti gizlədilərək göstərilirdi ki, rus ordusunun məqsədi Şirvan üsyanı zamanı qətl və qarətə məruz qalmış rus tacirlərinin intiqamını almaq və üsyançıları cəzalandırmaqdır. Manifestdə həmçinin yerli əhaliyə əmin-amanlıq vəd edilirdi [2, s.330].

I Pyotr 1722-ci il iyunun 18-də Həştərxanda Azərbaycanın Xəzəryanı bölgələrinə yürüşə başladı. Rusiya donanması general-admiral F.Apraksinin komandanlığı altında Xəzər dənizinə çıxdı. 1722-ci il avqustun 15-də rus eskadrası Dərbəndə çatdı. Avqustun 23-də isə piyada qoşunlar da şəhərə yaxınlaşdı. Şəhər naibi İmamqulu bəy qalanın açarlarını və "Dərbəndnamə" adlı mühüm tarixi əsərin əlyazmasını I Pyotra təqdim etdi [5, s.527]. Rus ordusu Dərbəndə döyüşsüz girdi. Pyotr öz Senatına yürüşün çox çəkməyəcəyini yazsa da, atların yemsiz olduğunu və böyük istilər səbəbindən çətinliklərlə qarşılaşacağını bildirirdi. O, İmamqulu bəyin hərəkətini yüksək qiymətləndirdi və ona general-mayor rütbəsi, xan ləqəbi verdi. Avqustun 30-da rus ordusu Dərbənddən Bakıya doğru hərəkət etdi. Lakin İsveçlə yeni müharibə təhlükəsi yarandığı üçün Bakının tutulmasını general M.Matyuşkinə tapşıraraq Peterburqa qayıtdı. Pyotr hələ Dərbənddə olduğu zaman polkovnik Şipova iki batalyonu ilə Rəşt şəhərini ələ keçirməyi əmr etmişdi. 1722-ci ilin noyabrında Şipov Rəşt şəhəri üzərinə yollandı və tezliklə bu şəhər də tutuldu [1, s.475].

Səfəvi dövlətində mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən Osmanlı qoşunları vaxt itirmədən Cənubi Qafqaza daxil olaraq Tiflis şəhərini işğal etdi. Osmanlı imperiyasının hücumu I Pyotru Bakını işğal etməyə tələsdirdi. 1723-cü il iyulun 21-də rus donanması Bakı limanına daxil oldu. Dərgahqulu bəy başda olmaqla, 700 nəfərdən ibarət qarnizon rus qoşununa daxil oldu. Şəhər hakimi Məhəmmədhüseyn bəyin ciddi müqavimətinə baxmayaraq Bakı çətinliklə də olsa ruslar tərəfindən tutuldu. Bakı işğal olunduqdan sonra burada komendantlıq idarəsi yaradıldı. Bakının ilk komendantı knyaz Baryatinski təyin olundu. Bakıdan sonra ruslar asanlıqla Salyan şəhərini də işğal etdilər [2, s.332].

Peterburq müqaviləsi və Rusiya–Osmanlı razılaşması

I Pyotr işğal olunmuş ərazilərdə hakimiyyətini hüquqi cəhətdən təmin etmək üçün Səfəvi dövləti ilə danışıq aparmağı qərara almışdı. 1723-cü il sentyabrın 12-də Şah II Təhmasibin Peterburqa göndərdiyi İsmayıl bəy şahın icazəsi olmadan Rusiya ilə müqavilə imzaladı. 5 maddədən ibarət olan Peterburq müqaviləsinə əsasən Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabad Rusiyaya birləşdirilirdi. Rusiya isə öz növbəsində qiyamçılara qarşı mübarizədə şaha kömək vəd edirdi. Lakin II Təhmasib müqaviləni təsdiq etmədi. İsmayıl bəy xain elan olundu və ömrünün sonunadək Rusiyada qaldı [6, s.113].

Osmanlı qoşununun Azərbaycan ərazisinə daxil olması Rusiya ilə Osmanlı arasında hərbi toqquşmaya gətirib çıxara bilərdi. Lakin İsveçlə müharibəni təzəcə qurtarmış Rusiya yeni müharibəyə başlaya bilməzdi. Ona görə də 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə Osmanlı arasında sülh

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24298491

müqaviləsi imzalandı. Beləliklə, Rusiya imperiyası Peterburq müqaviləsinin şərtlərinin təsdiq edilməsinə, Xəzərboyu vilayətlərin diplomatik yolla Rusiyaya birləşdirilməsi faktının qəbul olunmasına nail oldu. Rusiya öz növbəsində Xəzərsahili istisna olmaqla bütün Azərbaycan ərazisinin Türkiyəyə verilməsinə razılıq verdi [5, s.529].

İstanbul müqaviləsi imzalandıqdan sonra Osmanlı qoşunları Cənubi Qafqaz istiqamətində hərəkətə keçdi. Türklər 1724-cü il sentyabrın 28-də İrəvan qalasını tutdular. İrəvandan sonra Osmanlı dövləti 1725-ci ilin iyulun 27-də Təbrizi, avqustda Gəncəni, 1725-ci ilin sonlarında isə işğal zonasına daxil olmayan Ərdəbil şəhərini almağa müvəffəq oldular. Ərdəbil şəhərinin alınması İstanbulda atəşfəşanlıqla qeyd edildi [2, s.335].

Rusiya idarəçiliyi: iqtisadi və demoqrafik tədbirlər

I Pyotr Bakıya və ona yaxın yerlərə xaçpərəstləri köçürməklə buranın etnoqrafik vəziyyətini dəyişmək istəyirdi. O, 1724-cü il noyabrın 10-da erməni katolikosu İsayyanı qəbul etmiş, ermənilərin Xəzəryanı əyalətlərə yerləşdirilməsi barədə xahişini dinləmişdi [1, s.478].

Rusiya Xəzərsahili vilayətləri ələ keçirməklə manufaktura sənayesinin xammal bazasına çevirmək məqsədi güdürdü. İpəkçiliyi, pambıqçılığı, bağçılığı inkişaf etdirmək, neft hasilatını artırmaq üçün tədbirlər görülürdü. Rusiyaya birləşdiriləndən sonra Xəzərsahili vilayətlərdə ticarət dövriyyəsi də artmışdı. İşğal etdiyi əyalətlərdə öz mövqeyini möhkəmləndirmək məqsədilə rus komandanlığı Bakı, Astara və Salyanda istehkamlar inşa etməyi qərara aldı. Rus mütəxəssisləri Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı tədbirlər hazırlayırdılar. I Pyotr hətta şərq ölkələri ilə iqtisadi əlaqələri genişləndirmək məqsədilə Kür çayının mənsəbinə Peterburq kimi şəhər salmaq istəyirdi. Rus qoşunları tərəfindən işğal edilmiş Xəzərboyu əyalətlərdə, Rusiya hökumətinin buranın təbii sərvətlərinə olan ehtiyacı sayəsində təsərrüfat nisbətən canlandı: 1723-cü ilin avqustundan 1725-ci ilin avqustunadək olan müddət ərzində Bakıda neft satışından dövlət xəzinəsi 36 çervon, 16.638 man gəlir əldə etmişdi. Bu qayda ilə Dərbənd və Salyan şəhərlərində də mədaxil artmışdı [1, s.487].

Bütün bunlara baxmayaraq, nə Osmanlı, nə də Rusiya Azərbaycanda tam olaraq möhkəmlənə bilməmişdi. Salyanda və Bakıda rus hakimiyyətinə qarşı üsyanlar baş vermiş, lakin rus qoşunları tərəfindən çətinliklə yatırılmışdı. 1727-ci ildə Muğan hakimi Ramazan bəy rus hakimiyyətinə qarşı çıxış etməyə cəhd göstərdi, lakin uğur əldə edə bilməyib həbs olundu. Rusiya ilə Osmanlı Cənubi Qafqazda bir-birinə qarşı düşmən kimi davranırdılar. Rusiya Avstriya ilə yaxınlaşaraq Osmanlıya qarşı yönəlmiş yeni bir ittifaqa girmişdi [1, s.487].

Nadir xan Əfşarın yüksəlişi, Rəşt (1732) və Gəncə (1735) müqavilələri

Səfəvi dövlətində əfqan işğalları həyatın bütün sahələrinə ağır zərbə vurmuşdu. Bu, antiəfqan qüvvələrin II Təhmasib ətrafında birləşməsinə təkan verdi. Nadir xan Əfşar 1726-cı ildə bu mübarizəyə qoşuldu. Nadir xan 1729-cu ildə əfqanları məğlub edərək İsfahanı azad etdi. 1730-cu ildə Osmanlıda dövlət çevrilişi olması və III Əhmədin devrilməsindən istifadə edən Nadir xan Əfşar Osmanlı ilə müharibəyə başladı. 1730-cu ilin sentyabrında Ərdəbil, sonra Təbriz azad edildi. Nadir xan İrəvan üzərinə yürüşə hazırlaşarkən Xorasanda baş vermiş üsyanla əlaqədar Azərbaycanı tərk etdi [4, s.262]. II Təhmasib nüfuzunu artırmaq üçün İrəvan istiqamətində yürüş etsə də məğlub olub geri çəkildi. 1732-ci ilin yanvarın 16-da Kirmanşahda Səfəvi–Osmanlı müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə əsasən Araz çayı sərhəd olmaqla, Təbriz və Kirmanşah Səfəvi dövlətinə qaytarıldı. Lakin Nadir xan Əfşar Kirmanşah müqaviləsinin şərtlərini tanımaqdan imtina edərək, Osmanlı dövlətindən işğal olunmuş torpaqların geri qaytarılmasını tələb etdi.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24298491

İranda mərkəzi hakimiyyətin möhkəmlənməsi Osmanlı dövlətinin Xəzəryanı vilayətlərə buraxılmamasına zəmanət verirdi. Məhz buna görə Rusiya 1732-ci il yanvarın 21-də Rəştdə Səfəvi dövləti ilə müqavilə imzaladı. Müqavilə preambula və 8 maddədən ibarət idi. Preambulada müqavilənin bağlanma səbəblərindən bəhs olunur, imperatriça Anna İvanovnanın nümayəndələri V.Levaşov və P.Şafirovun səlahiyyəti təsdiq edilirdi. Müqavilənin şərtlərinə görə Kür çayından cənubda yerləşən Xəzərsahili vilayətlər Səfəvi dövlətinə qaytarıldı. Səfəvilər isə öz növbəsində Osmanlının bu yerlərə buraxılmamasına zəmanət verirdi. Həmçinin müqavilədə rus tacirləri üçün güzəştli şərtlər də nəzərdə tutulmuşdu [5, s.535]. İranın bütün əyalətlərində rus tacirlərinin heç bir gömrük, rüsum, vergi ödəmədən tam sərbəst və azad alış-veriş etməsinə, habelə onun ərazisindən Hindistanla gömrüksüz tranzit ticarət aparılmasına razılıq verildi.

Nadir xan Əfşar Xorasandan qayıtdıqdan sonra tərəfdarlarının yardımı ilə II Təhmasibi taxtdan saldı. O, Təhmasibin 8 aylıq oğlu Abbas Mirzəni III Abbas adı ilə şah, özünü isə onun vəkili elan etdi [2, s.346]. Nadir xan Əfşar Kirmanşah müqaviləsini ləğv edərək, 100 minlik qoşunla Osmanlı dövləti üzərinə hücuma keçdi. 1733-cü ildə Osmanlı qoşunu Bağdad yaxınlığında darmadağın edildi. 1734-cü ildə Nadir xan Azərbaycan istiqamətində hərəkət etdi. O, Ərdəbil və Təbrizdən Osmanlı qüvvələrini qovduqdan sonra Şirvana hücum edib, Şamaxı şəhərini tutdu.

Rusiya imperiyası Səfəvilər dövlətinin siyasi vəziyyətini hərtərəfli öyrənmək məqsədi ilə knyaz S.Qolitsini şah sarayına göndərmişdi. Qolitsinin apardığı danışıqlar zamanı aydın oldu ki, Nadir xan nəinki Osmanlıların, o cümlədən Rusiyanın tutduğu Xəzərsahili torpaqları da geri qaytarmaq istəyir. Antiosmanlı ittifaqına maraqlı olan Rusiya imperiyası Xəzərsahili torpaqları güzəştə getməyə razı oldu. Beləliklə, 1735-ci il martın 10-da Nadir xanın Gəncədə olan düşərgəsində Rusiya ilə müqavilə imzalandı [6, s.188].

Gəncə müqaviləsinə əsasən Salyan, Bakı, Dərbənd şəhərləri Səfəvilər dövlətinə geri qaytarıldı. Həmçinin Rusiya Dağıstanın İran hökmdarlığına keçməsinə, İranın dövlət sərhədlərinin Sulak çayına kimi uzadılmasına razılıq verməli oldu [1, s.493]. Müqavilənin V maddəsi ticarətin tənzimlənməsinə həsr olunmuşdu. İran Rusiya tacirlərinə Rəşt müqaviləsinə uyğun yanaşmağı vəd edirdi.

Gəncə müqaviləsindən sonra Nadir xan Əfşar 1735-ci ilin iyununda Eçmiədzin yaxınlığında Osmanlı ordusunu məğlubiyyətə uğratdı. 1735-ci ilin sonlarında Osmanlı qüvvələri Cənubi Qafqazdan çıxarıldı. Azərbaycanda mövqeyini möhkəmləndirən Nadir xan Əfşar 1736-cı ilin martında Muğanda toplanan qurultayda özünü şah elan etdi [4, s.263].

Müzakirə

Tədqiq olunan dövrün hadisələri göstərir ki, Rusiyanın Xəzərsahili vilayətlərdə möhkəmlənmək siyasəti bir neçə amilin birgə təsiri nəticəsində uğursuzluğa düçar oldu.

Birincisi, siyasət böyük dərəcədə I Pyotrun şəxsiyyəti ilə bağlı idi. I Pyotrun ölümündən sonra Rusiya hökumətində Xəzəryanı bölgələri öz əlində saxlaya biləcək ikinci bir şəxsiyyət yox idi.

İkincisi, bu ərazidə yerləşən qoşunu saxlamaq üçün böyük xərc tələb olunurdu. Rus əsgərləri iqlimə uyğunlaşa bilmirdilər, qızdırma və başqa yoluxucu xəstəliklər onların ölümünə səbəb olurdu. P.Butkovun sayımına görə 13 ildə bu bölgədə Rusiya 130, bəlkə də 200 min adam itirmişdi [1, s.489]. Bu itkilər Xəzərsahili vilayətlərdən əldə olunan iqtisadi gəlirlərin (məsələn, Bakıda neft satışından daxil olan vəsaitin) hərbi və təchizat xərclərini ödəmədiyini göstərir.

Üçüncüsü, Rusiya və Osmanlı Cənubi Qafqazda bir-birinə qarşı düşmən mövqedə dayanırdılar; İstanbul sülhü (1724) bu rəqabəti yalnız müvəqqəti yumşaltmışdı. Bununla belə, məhz bu rəqabət sonradan Rusiyanın Rəşt (1732) və Gəncə (1735) müqavilələrində güzəştə getməsinin əsas

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24298491

səbəblərindən birinə çevrildi: Rusiya Osmanlıya qarşı İranla ittifaqa maraqlı idi və bu naminə işğal etdiyi torpaqlardan imtina etməyə razılıq verdi.

Dördüncüsü, İranda Nadir xan Əfşarın hakimiyyətə yüksəlişi və mərkəzi hakimiyyətin bərpası qüvvələr nisbətini dəyişdi. Nadir xan Rusiyanın tutduğu Xəzərsahili torpaqların geri qaytarılmasını açıq şəkildə tələb edirdi və Osmanlı ordusuna qarşı qələbələr qazanaraq mövqeyini möhkəmləndirmişdi.

Beşincisi, yerli əhali və hakimlərin müqaviməti də rus hakimiyyətinin möhkəmlənməsinə mane oldu: Bakıda, Salyanda və Muğanda baş vermiş çıxışlar rus qoşunları tərəfindən yalnız çətinliklə yatırıla bilmişdi.

Rəşt müqaviləsi Rusiya üçün hərbi-siyasi geri çəkilmə ilə yanaşı, ticarət sahəsində mühüm üstünlüklər (gömrüksüz ticarət, Hindistanla tranzit) təmin etdiyinə görə rus diplomatiyasının uğuru kimi qiymətləndirilmişdir. Gəncə müqaviləsi isə Rusiyanın Xəzərsahili vilayətlərdən və Dağıstan üzərindəki iddialarından tam çıxması demək idi.

Yekun

XVIII əsrin I yarısında Rusiyanın Azərbaycanın Xəzərsahili vilayətlərdə möhkəmlənmək siyasəti uğursuzluqla nəticələndi. I Pyotrun Xəzər dənizini bir "rus gölü"nə çevirmək, Şərq ipək ticarətini tamamilə Rusiyanın üzərindən Avropaya yönəltmək planları boşa çıxdı. Rusiyanın bu marağı Artemi Volınskinin 1715–1718-ci illərdəki missiyasından məlum idi. Lakin hərbi vəziyyət, əhalinin azalması və ticarət əlaqələrinin pozulması səbəbindən Rusiya bu planları geniş miqyasda həyata keçirə bilmədi, regionun ənənəvi ticarət şəbəkəsi isə uzun müddət zərər çəkdi. Rusiya bu bölgələrdə yalnız XIX əsrin əvvəllərində yenidən möhkəmlənə bildi.

Ədəbiyyat siyahısı

1. Azərbaycan tarixi: (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, "Çıraq", 2009, 861 s.
2. Azərbaycan tarixi: Yeddi cilddə. III cild (XIII–XVIII əsrlər). Bakı, "Elm", 2007, 563 s.
3. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Müəllim", 2006, 83 s.
4. Məmmədov İ. Azərbaycan tarixi. Bakı, "Adiloğlu", 2005, 486 s.
5. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Bakı, "Çıraq", 2007, 720 s.
6. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. Bakı, "Elm", 2009, 512 s.

ABSTRACT

RUSSIA'S CONSOLIDATION POLICY IN AZERBAIJAN IN THE FIRST HALF OF THE 18TH CENTURY

Faig Abishov

The article initially examines the objectives of the policy pursued by the Russian Empire in the Caspian Sea basin and the South Caucasus in the first half of the 18th century, Peter I's "Manifesto," the political, economic, and strategic factors determining Russia's interest in the Caspian littoral provinces, Russia's campaign of 1722–1723, the capture of Derbent and Baku, the Treaty of Saint Petersburg of 1723, the attitude of local rulers and the population toward Russian troops, the uprising in Shirvan led by Haji Davud, and the impact of Russian–Ottoman–Iranian relations on Azerbaijan. It becomes evident that following the death of Peter I, the Russian army suffered heavy losses due to climatic conditions, diseases, and supply difficulties, and was therefore unable to consolidate its position in these territories. Consequently, under the

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 79-85
DOI: https://doi.org/10.5281/zenodo.24298491

Treaty of Resht (1732) and the Treaty of Ganja (1735), Russia was forced to withdraw from the Caspian littoral provinces. Nevertheless, the experience gained during this period influenced the formation of Russia's South Caucasus policy in subsequent decades.

Keywords: *Military ethics, military service, moral relations, human morality, professional ethics, military personnel*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license